# Zəngilan beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcək




**Hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Prezident İlham Əliyev hər dəfə bu və ya digər rayona səfər edərkən görülən işlərlə tanış olur, hazır obyektlərin açılışını edir, yenilərinin təməlini qoyur. Dövlət başçısının bu günlərdə Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına səfəri də istisna təşkil etmədi.**



Səfər çərçivəsində işğaldan azad olunmuş ərazilərdə sayca ikinci olan Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə verildi. Limanın açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı Azərbaycan və Türkiyə liderləri arasında səmimi dostluq və qardaşlıq münasibətlərinin, eyni zamanda, iki ölkə arasında strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirdi.

Prezidentin səfəri zamanı həm də yeni obyektlər istifadəyə verildi. Bu sırada Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli–Cəbrayıl hissəsinin istifadəyə verilməsini, eyni zamanda, Cəbrayılda və Qubadlıda "Azərişıq" ASC-nin yarımstansiyaları və Rəqəmsal İdarəetmə Mərkəzlərinin təməlinin qoyulmasını xüsusilə qeyd etmək lazımdır. Bu, onu göstərir ki, işğaldan azad olunmuş ərazilərdə nəqliyyat və enerji infrastrukturunun yaradılması istiqamətində ardıcıl işlər görülür və bu məsələ daim dövlət başçımızın diqqət mərkəzindədir. Bu addımlar şübhəsiz ki, işğaldan azad olunmuş ərazilərdə görülən genişmiqyaslı tədbirlərin tərkib hissəsi kimi, regionun inkişafına, eləcə də məskunlaşdırılmasına böyük təkan verəcək.

Təbii ki, Prezident İlham Əliyevin səfəri zamanı Zəngilan Beynəlxalq Hava Limanının açılması ayrıca qeyd edilməlidir. Bu, işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur.

Hava limanının strukturu bütün növ təyyarələri, o cümlədən, genişgövdəli ağır yük təyyarələrini belə, qəbul etməyə imkan verir. Hava limanı ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək. Müasir dünya tələblərinə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərmək imkanına malikdir.

Aeroportda tam avtomatlaşdırılmış hava hərəkətinə nəzarət və aviasiya rabitəsi sistemləri ilə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi tikilib. Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq İtaliyanın və Almaniyanın aparıcı istehsalçılarının müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilib. Xüsusilə vurğulanmalıdır ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Bu hava limanı həm də Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti limanın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır.


**Nizami SÜLEYMANOV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin professoru,**
**tarix elmləri doktoru**


Xalq qəzeti .- 2022.- 21 oktyabr.- S.7.